# Nizaminin "Xosrov və Şirin" məsnəvisinə Dəhləvinin yazdığı nəzirə haqqında

**Könül Hacıyeva**
Filologiya üzrə fəlsəfə doktoru
AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu. Azərbaycan.
E-mail: konulhaciyeva75@gmail.com

**Annotasiya.** Böyük Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığının təsir gücü və ədəbi məktəb yaratması baxımından şeir sənətinin zirvəsində duran ustad sənətkarlardandır. Şərq ədəbiyyatında bir çox şair, Nizami ədəbi ənənələrini davam etdirmişdir. Dəhləvinin, demək olar ki, bütün əsərlərində Nizaminin adını anaraq sənətini uca tutduğunu müşahidə etmək mümkündür. Əmir Xosrov Dəhləvinin Nizami «Xəmsə»sinə daxil olan poemalara nəzirə olaraq yaratdığı əsərlərdən biri «Şirin və Xosrov»dur. Dəhləvinin yaratdığı Şirin obrazı Fərhadı qəlbən sevən, ona Bisütunu yaracaq qədər eşq gücü verərək, ilhamlandıran sevgili olaraq qarşımıza çıxır. Halbuki Nizaminin Şirin obrazı Fərhada aşiq deyildi, sadəcə, ona bir zəhmətkeş sənətkar kimi ehtiram bəsləyirdi. Qeyd etmək lazımdır ki, nəzər yetirdiyimiz əsərlərdə Fərhad obrazlarının da müəyyən fərqlərini sezmək mümkündür. Belə ki, Əmir Xosrovun yaratdığı Fərhad obrazı bir qədər bədbin, həyatdan küskün təsiri bağışlayır. Nizaminin Fərhadı isə daha nikbin, irəliyə ümidlə baxan bir əsər qəhrəmanıdır. Əmir Xosrov Dəhləvinin "Şirin və Xosrov" poeması bədii tərtibatına və poetik xüsusiyyətlərinə görə də yüksək dəyərləndirilən sanballı nəzm əsəridir. Dəhləvi, şübhəsiz, Nizami ədəbi məktəbinin ən dəyərli və layiqli davamçısı hesab olunur.
**Açar sözlər:** Nizami Gəncəvi, nəzirə, Əmir Xosrov Dəhləvi, məsnəvi, şair

**Məqalə tarixçəsi:** göndərilib – 12.12.2022; qəbul edilib – 19.12.2022

# About the nazire written by Dihlevi for the "Khosrov and Shirin" Masnavi of the Nizami

**Konul Hajiyeva**
Doctor of Philosophy in Philology
Institute of Literature named after Nizami Ganjavi of ANAS. Azerbaijan.
E-mail: konulhaciyeva75@gmail.com

**Abstract.** The great Azerbaijani poet Nizami Ganjavi is one of the master artists who is at the top of the art of poetry in terms of the effect of his works and creating a literary school. Many poets who followed him continued the literary traditions of Nizami. It is possible to observe that almost all of Dehlavi's works mention Nizami's name and glorify his art. "Shirin and Khosrov" is one of the works written by Amir Khusrau Dehlavi as a nazira to the masnavis in Nizami's "Khamsa". It should be noted that although the work was written under the influence of Nizami's poetry, it is possible to see fundamental differences in some subjects. The character of Shirin in Dehlavi's work appears as a lover who loves Ferhat with all his heart and inspires him enough to pierce Bisutun. However, the character of Shirin, written by Nizami, was not in love with Ferhat, he only respected her as a hardworking, labor-loving artist. It is possible to see some differences in Ferhat characters in the lines we have examined. Namely, the character of Ferhat, created by Amir Khusrau, seems to have a pessimistic and resentful image. Nizami's Ferhat, on the other hand, is a more optimistic, forward-looking and hopeful hero for the future. Dehlavi is undoubtedly a valuable representative of the Nizami literary school.
**Keywords:** Nizami Ganjavi, nazira, Amir Khosrov Dehlavi, masnavi, poet

**Article history:** received – 12.12.2022; accepted – 19.12.2022

## Giriş / *Introduction*

Orta yüzilliklərdə fars dilində inkişaf edən ədəbiyyat xususilə zəngin və əhatəli səciyyə daşıyırdı. Əsərlərini farsca qələmə alan türk soylu söz ustadları arasından da böyük alim-şairlər, mütəsəvviflər çıxırdı. Məsnəvi janrında yazan sənətkarların çoxu türk əsilli şairlərdir və o dövrün şeir dili olan farscada böyük hünər göstərərək, söz xəzinəsinə misilsiz əsərlər bəxş etmişlər. Bu barədə oxuyuruq: “Türk şairleri tasavvufî mesnevilerde Senâî’nin, Ferîdüddin Attâr’ın, Nizâmî-i Gencevî’nin, Emîr Hüsrev-i Dihlevî’nin, Molla Câmî’nin mesnevilerinden ve özellikle tasavvuf edebiyatının en önemli şairi Mevlânâ Celâleddîni Rûmî’nin Mesnevî’sinden etkilenmişlerdir. Mesnevi Türk şairlerine sadece tasavvufî açıdan değil Farsça’yı şiir yazacak kadar ilerletmeleri, edebî bilgi ve zevklerinin gelişmesi açısından da tesir etmiş, üzerlerinde her yönüyle eğitici bir rol oynamıştır” [1, s.60]. Böyük Azərbaycan şairi Nizami Gəncəvi yaradıcılığının təsir gücü və ədəbi məktəb yaratması baxımından şeir sənətinin zirvəsində duran ustad sənətkarlardandır. Şərq ədəbiyyatında bir çox şair, Nizami ədəbi ənənələrini davam etdirmişdir. Bu şairlərdən Əmir Xosrov Dəhləvi, Əbdürrəhman Cami, Əlişir Nəvainin ədəbi irsi xüsusilə diqqətəlayiqdir.

## Əsas hissə / *Main Part*

Dəhləvinin, demək olar ki, bütün əsərlərində Nizaminin adını anaraq sənətini uca tutduğunu müşahidə etmək mümkündür. Bu türk əsilli hind şairi farsdilli ədəbiyyat tarixində layiqli iz qoymuş, söz sənətində şöhrətli ad qazanmış görkəmli şəxsiyyət olaraq tanınır. Müasir İran ədəbiyyatşünaslığında Dəhləvinin Nizami sənətindən təsirlənməsi haqqında deyilir:

"امیرخسرو دهلوی بی‌تردید بزرگترین شاعر پارسی‌گوی هند و یکی از شاعران شیرین‌سخن و نیرومند فارسی است. او در غزل
از سعدی و در مثنوی از نظامی و در موعظه و حکمت از سنائی و خاقانی و در قصیده از رضی‌الدین نیشابوری و کمال‌الدین
اسماعیل پیروی کرده است. "
[6]

“Əmir Xosrov Dəhləvi tərəddüdsüz ən böyük farsdilli hind şairi və farscanın şirindilli və güclü sənətkarlarındandır. O, qəzəldə Sədi, məsnəvidə Nizami, moizə və hikmətdə Sənai və Xaqani, qəsidədə isə Rəziəddin Nişaburi və Kəmaləddin İsmayılın yolunu davam etdirmişdir.” Araşdırıcılar şairin dövrümüzədək gəlib çatan əsərləri ilə yaxından tanış olaraq bu qənaətə gəlmişlər. Şübhəsiz ki, şairin sənətinin formalaşıb inkişaf etməsində ən güclü təsir  Nizami irsinin təsiridir.

Şərq poeziyası tarixində Nizami Gəncəvinin yaratdığı “Xəmsə” kimi qiymətli ədəbiyyat nümunəsinə yazılan nəzirələr ona bir cavab səciyyəsi daşıyırdı. Əmir Xosrov Dəhləvinin Nizami “Xəmsə”sinə daxil olan poemalara nəzirə olaraq yaratdığı əsərlərdən biri “Şirin və Xosrov”dur. Bu məsnəvi 1298-ci ildə “Xosrov və Şirin”ə cavab olaraq yazılıb. Əmir Xosrov poemanın əvvəlindəki “Papaqçı hekayəsi” adlı hissədə Nizaminin yazdığı mövzuya müraciət etməyin böyük məsuliyyət olduğunu vurğulayıb, bu əsərə görə onu qınayanların da olacağını deyir. Əsərin dilimizə edilən poetik tərcüməsində şairin fikirləri aşağıdakı şəkildə təqdim olunub:

*Kamal sahibi ki, bələddir buna,*
*Vaqifdir əvvəlki sehrə, əfsuna.*
*Bilirəm, dastanı alacaq ələ,*
*Bəlkə də özümü salacaq ələ.*
*Güləcək: “Buna bax, yarışır kimlə?”*
*Mən isə razıyam belə hakimlə.* [3, s.189]

Şair yazdığı poemanın sənətkarlıqda sələfinin əsərinə çatmadığını və bu mövzuda tənqidlərə açıq olduğunu dilə gətirir. Onu da qeyd etmək lazımdır ki, əsər Nizaminin poemasının təsiri ilə qələ-

mə alınsa da, bir sıra məsələlərdə əsaslı fərqlərin olduğunu görmək mümkündür. Dəhləvinin yaratdığı Şirin obrazı Fərhadı qəlbən sevən, ona Bisütunu yaracaq qədər eşq gücü verərək, ilhamlandıran sevgili olaraq qarşımıza çıxır. Halbuki Nizaminin Şirin obrazı Fərhada aşiq deyildi, sadəcə, ona bir zəhmətkeş sənətkar kimi ehtiram bəsləyirdi. Dəhləvi əsərə Fərhadın ölümünün ardınca Şirinin Xosrovdan qisasalma səhnəsini də əlavə etmişdir. Belə ki, Şirin Mahsaman adlı qadını öyrədib İsfahana yollayır və Şəkərin zəhərləndirilib öldürülməsinə nail olur.

Nizami və Dəhləvinin "Xosrov və Şirin" mövzusunda yazdığı əsərlər bir çox İran ədəbiyyatşünasları tərəfindən də müqayisə obyekti olmuşdur. Bu cür araşdırmaların əks olunduğu məqalələrin birində Nizaminin "Xosrov və Şirin" əsəri ilə Dəhləvinin "Şirin və Xosrov" əsərlərindəki təsvir ifadə və ibarələri arasında müqayisə aparılır. Dəhləvinin Şirin obrazını kişilərə məxsus cəhət və cizgilərlə təsvir etdiyi vurğulanır. Məqalədə deyilir:

نظامی در 79 بیتی که از زبان شاپور به توصیف شیرین پرداخته به هیچ وجه از اوصاف مردانه استفاده نکرده. در واقع امیرخسرو در این قسمت دچار تطویل در وصف شده است

[5, s.43]

"Nizami yetmiş doqquz beyt boyu Şapurun dilindən Şirini təsvir edərkən heç bir şəkildə kişiyə məxsus vəsflərdən istifadə etməmişdir. Halbuki Əmir Xosrov bu baxımdan uzun-uzadı vəsflərə yer vermişdir".

Müəlliflərə görə, Dəhləvi Şirini təsvir edərkən onun ox atmağından, qılınc oynatmağından, ov ovlamaq bacarığından danışdığı halda, Nizami Şirinin qadın incəliyindən, gözəl və zərif olmasından söz açmağa üstünlük vermişdir.

Əsəri dilimizə tərcümə edən şair və tərcüməçi A. Sarovlunun qeydlərində oxuyuruq: "Nizami kimi mahir söz ustasının poetik dil ilə, yüksək sənətkarlıqla qələmə almış olduğu belə bir əsərə cavab yazmaq həqiqi istedad tələb edirdi. Bu əsəri yazarkən, Əmir Xosrov Dəhləvi böyük yaradıcılıq imtahanı qarşısında qalmışdı" [3, s.183]. Tədqiqatçı haqlı olaraq bu işi böyük bir sənət sınağı hesab edir. Belə ki, ilk baxışda mövzusu eşq macərasından ibarət olduğu görünən "Xosrov və Şirin" əfsanəsi, əslində, müxtəlif psixoloji məqamları özündə əks elətdirən, həyat dərsi verə bilən geniş məzmunlu bir əsərə qaynaqlıq etmək iqtidarındadır. Dəhləvi də sələfi Nizami kimi bu qaynaqdan mümkün dərəcədə faydalanaraq ortaya mükəmməl bir əsər çıxarmaq əzmilə çalışmış, nəticədə, saray mühitinin ən müxtəlif xüsusiyyətlərini, hökmdarların həyat tərzinin fərqli məqamlarını, onların müəyyən vəziyyətlərdəki ruh halını əks etdirən maraqlı sənət nümunəsi ərsəyə gəlmişdir. Qeyd etmək lazımdır ki, "Xosrov və Şirin" mövzusu VIII-IX əsrlərdə ərəb, X-XI yüzilliklərdə fars ədəbiyyatında işlənmişdir. Görkəmli İran şairi Əbülqasim Firdovsi, Azərbaycan şairləri Qətran Təbrizi, Xaqani Şirvani də əsərlərində bu qədim Şərq əfsanəsinə işarə etmiş, onun qəhrəmanlarının adını çəkmişlər. Dəhləvi yaradıcılığında Azərbaycanın klassik Şərq ədəbiyyatı tədqiqatçılarının diqqətini ən çox cəlb etmiş əsər də məhz "Şirin və Xosrov" poemasıdır. Görkəmli ədəbiyyatçı alim Q.Beqdeli Nizaminin əsəri ilə süjet və obrazlar baxımından bənzərliyinə görə, bu poemanı iqtibas adlandırmağın mümkün olduğunu yazırdı [2, s.142]. Qeyd etdiyimiz kimi, Dəhləvinin bu əsərdəki qəhrəmanları sarayla bağlı obrazlardır. Hətta Fərhad surəti də sadə xalqın içindən çıxmış əmək adamı kimi yox, Çin xaqanının oğlu olaraq təqdim edilir. Əmir Xosrov əsərdə şahları tərif və tərənnüm etməklə yanaşı, bütün bunların fonunda xırda saray intriqalarını da əks etdrməyə çalışmışdır. Məsələn, Şapur obrazından bəzi saray əyanlarının əqidəsiz, simasız, şöhrət düşkünü, miskin məxluqlar olduğunu göstərmək üçün istifadə etmişdir. Xosrov isə Dəhləvinin təqdimatında müdrik və adil hökmdar, qorxmaz cəngavər olaraq göstərilir.

Əsərdə Xosrovla bağlı baş verən əhvalatlar və hadisələrin gedişatı göstərir ki, o, heç də ağıllı və ədalətli padşah kimi hərəkət etmir. Tədricən eyş-işrətdən başı açılmayan, içki, qadın və şəhvət düşkünü bir insana çevrilir. Bütün bunların nəticəsi kimi, Xosrov ölkəyə başçılıq etmək iqtidarında olmayan fəaliyyətsiz bir hökmdar vəziyyətinə düşür. Hakimiyyətdə qalmaq üçün müxtəlif çarələr axtaran Xosrov Rum qeysərinin qızı ilə evlənməyi qərara alır. Digər tərəfdən isə, Şirinə vurulub onunla görüşməyi arzulayır. Gözəllər gözəli Şirini qısqandırmaq məqsədilə İsfahandan olan Şəkər adlı bir gözəllə izdivac qurur. Bütün bunları görən qürurlu və iffətli Şirin onu həqiqi məhəbbətlə və qəlbən sevən Fərhadla əhd bağlayır. Fərhad obrazı şahlıq səltənətini qoyub sənəti, şərəfli əməyi və halal qa-

zancı seçən ideal bir əsər qəhrəmanıdır. Bu obraz haqqında oxuyuruq: "Fərhad mənsəbpərəstliyə qarşı qoyulmuş alicənab, mənəvi saflığı, azadlığı ali rütbədən, şöhrətpərəstlikdən üstün tutan geniş qəlbli insandır… Zəhmətin, sənətin ecazkar gücü onu mənsəb sahibindən daha əzəmətli göstərir. Fərhadla Xosrov bir-birinə tamamilə zidd olan ayrı-ayrı qütblərdə dayanmışdır. Fərhad qütbündə – paklıq, dəyanət, mərdlik, Xosrov qütbündə – hiylə, xəyanət, namərdlik…" [3, s.184] Məhz hiylə və məkr işlədərək Fərhada qalib gəldiyinə görə, Xosrov bu sadiq və qüdrətli aşiqin qarşısında aciz və miskin görünür.

Dəhləvi Fərhad obrazını təmiz və saf eşqin timsalı olaraq oxuculara sevdirməyə nail olmuşdur. Şirinin qəsdən uydurulmuş ölüm xəbərini eşidib Fərhadın intihar edərək həyatdan nakam getməsi isə əsərdə çox kədərli və oxucunu dərindən təəssüfləndirən epizod kimi çıxış edir. Bütün bunlar Xosrovun çoban görkəmində Fərhadın yanına gedib onunla görüşməsindən sonra baş verir. Fikrimizcə, əsərdə ən həlledici və maraqlı hissə də məhz Xosrovla Fərhad arasındakı dialoqun olduğu bu bölümdür.

بگفتش کیستی و در چه سازی بگفتا عاشقم در جان گدازی
بگفتش عشقبازی را نشان چیست بگفتا آنکه داند در بلا زیست
بگفتش عاشقان زین ره چه پویند گفتا دل دهند و درد جویند

[7,s.28]

"Dedi: kimsən, nə iş görürsən? Dedi: canını oda yaxan bir aşiqəm. Dedi: aşiqliyin əlaməti nədir? Dedi: aşiq odur ki, həyatı bəlaya düçardır. Dedi: aşiqlər bu yolda nə axtarırlar? Dedi: könül verib dərd axtarırlar".

Gördüyümüz kimi, burada Xosrov Fərhadın eşqini sınamaq üçün verdiyi suallara tutarlı və məntiqi cavablar alır. Fərhad qəlbində bəslədiyi eşqin ona dərd verdiyini və bu "dərdi" ilə xoşbəxt olduğunu qarşısındakının diqqətinə çatdırır. Hökmdar və mənsəbpərəst Xosrov onun əzmkar məhəbbətinin, saf sevgisinin şahidi olur. Şübhəsiz ki, şair bu dialoqu da böyük sələfi olan Nizaminin "Xosrov və Şirin" poemasındakı məlum deyişməyə nəzərən qurmuşdur. Müqayisə üçün Nizaminin misralarına diqqət yetirək:

بگفت از دل شدی عاشق بدینسان؟ بگفت از دل تو می‌گوئی من از جان
بگفتا عشق شیرین بر تو چونست بگفت از جان شیرینم فزونست
بگفتا هر شبش بینی چو مهتاب بگفت آری چو خواب آید کجا خواب

[4, s.213]

"Dedi: belə könüldən aşiq olmusan? Dedi: sən könüldən deyirsən, mən isə candan aşiqəm. Dedi: Şirinin eşqi səninçün nədir? Dedi: şirin canımdan artıqdır. Dedi: onu ay kimi hər gecə görürsən? Dedi: Bəli, yuxu gələndə. Yuxu nə gəzir?!"

Deyişmənin məzmunu eyni olsa da, hər şair bu dualoqu özünəməxsus şəkildə qələmə almış və poetik qüdrətini, bədii təsvir qabiliyyətini nümayiş etdirmişdir. Nizami Gəncəvinin söz sənətindəki ustalığı isə xüsusilə diqqətəlayiqdir. Burada onu da qeyd etmək lazımdır ki, nəzər yetirdiyimiz parçalarda Fərhad obrazlarının müəyyən fərqlərini də sezmək mümkündür. Belə ki, Əmir Xosrovun yaratdığı Fərhad obrazı bir qədər bədbin, həyatdan küskün təsiri bağışlayır. Nizaminin Fərhadı isə daha nikbin, irəliyə ümidlə baxan bir əsər qəhrəmanıdır. Bu cür müqayisələri çox aparmaq olar. Biz kiçik qarşılaşdırma nümunəsi ilə kifayətlənməyi lazım bilirik. Haqqında bəhs etdiyimiz məsnəvinin şairin daxili dünyası haqqında təsəvvür yaratdığını vurğulayan tərcüməçi-alim A.Sarovlu yazır: "Bu əsər şairin həyat, təbiət gözəlliyi, bəşəri arzular, saf məhəbbət haqqında epik-estetik görüşlərini, insan taleyi və cəmiyyət haqqında fəlsəfi düşüncələrini, söz sənətinə hakim olmaqda sənətkarlıq qüdrətini əks etdirən qiymətli bir sənət nümunəsidir" [3, s.184]. Ümumiyyətlə, Əmir Xosrov Dəhləvinin "Şirin və Xosrov" poeması bədii tərtibatına və poetik xüsusiyyətlərinə görə də yüksək dəyərləndirilən sanballı nəzm əsəri hesab olunur.

Dəhləvi, şübhəsiz, Nizami ədəbi məktəbinin ən dəyərli və layiqli davamçısı hesab olunur. Eyni zamanda Dəhləvi də öz sənəti ilə digər şairlərə əhəmiyyətli dərəcədə təsir etmişdir. Əbdürrəhman Cami və Əlişir Nəvai irsi də Dəhləvi sənətkarlığının ecazkar cazibəsindən öz nəsibini almışdır. Bununla bağlı oxuyuruq: "O, "Xəmsə"sinə daxil olan əsərlərində Nizaminin söz sənətində nadir və əvəzsiz sə-

nətkar olduğunu dönə-dönə etiraf etməyi özünə borc bilmişdir…Şərqin böyük mütəfəkkir şairi Əbdürrəhman Cami haqlı olaraq demişdir: "Nizami "Xəmsə"sinə heç kəs ondan daha yaxşı cavab verməmişdir" [3, s.183]. Caminin də vurğuladığı kimi, maraqlıdır ki, Dəhləvi hər kəsdən əvvəl özü bu ədəbi müqayisəni, sənət qarşılaşdırmasını apararaq, Nizaminin əbədi şöhrət, sənətkar ölməzliyi qazandığını dilə gətirir. Nizami Gəncəvinin "Xosrov və Şirin"inə nəzirə olaraq yazdığı "Şirin və Xosrov" poemasında Dəhləvi belə deyir:

نظامی کآب حیوان ریخت از حرف　　　همه عمرش در این سرمایه شد صرف
چنان در خمسه داد اندیشه را داد　　　که با سبع شدادش بست بنیاد

[7, s.39]

"Sözlərindən dirilik suyu süzülən Nizami bütün ömrünü bu sərmayəyə sərf etdi. "Xəmsə"də fikrinin, düşüncəsinin haqqını elə verdi ki, yeddi fələklə binasını hörüb möhkəmlətdi".

## Nəticə / *Conclusion*

Əmir Xosrov digər şeirlərində də Nizami sənətini yüksək qiymətləndirir. O, Nizaminin sözlərini həyat verən suya, "Xəmsə"sini bünövrəsi möhkəm binaya bənzədir. Şair bu sözləri ilə Nizami sənətinin böyüklüyünü vurğulayır, ona heyranlığını ifadə edir. Dəhləvi Nizamini sənətdə gur parlayan, özündən sonrakı şairlərin yolunu işıqlandıran yeganə ziya mənbəyi olaraq görür, onun qiymətli incilərin xiridarı kimi zəngin xəzinə yaratdığını qeyd edir.

## Ədəbiyyat / *References*


1. Aksoy Hasan. Türk İslam edebiyatı. Anadolu Universitesi, Eskişehir: Ocak 2013.
2. Beqdeli Q. Şərq ədəbiyyatında "Xosrov və Şirin" mövzusu, Bakı: Elm, 1970.
3. Dünya ədəbiyyatı kitabxanası.100 cilddə. 19-cu cild (Ön sözün müəllifi A.Sarovlu). Bakı: Yazıçı, 1988.
4. كليات خمسه.1381 تهران چاپخانه آینده
5. محمدباقر شهرامی، احمد رضی، محمد شفیع صفاری. بررسی اطناب بسط در دو منظومة خسرو و شیرین نظامی و امیر خسرو دهلوی
6. https://vista.ir/m/c/4usbl/آثار-دهلوی
7. https://ganjoor.net/khosro/gozide/khosro-shirin2/


# О назире, написанном Дехлеви на месневи Низами «Хосров и Ширин»


**Кёнюль Гаджиева**
Доктор философии по филологии
Институт литературы имени Низами Гянджеви НАНА. Азербайджан.
E-mail: konulhaciyeva75@gmail.com



**Резюме.** Великий азербайджанский поэт Низами Гянджеви является одним из мастеров слова, который находится на вершине поэтического искусства с точки зрения влияния своих произведений и создания литературной школы. Многие последовавшие за ним поэты продолжили литературные традиции Низами. Можно заметить, что Дехлеви почти во всех своих произведениях упоминает имя Низами и прославляет его искусство. «Ширин и Хосров» – одно из произведений, написанных Амиром Хосровом Дехлеви в качестве назире на поэму в «Хамсе» Низами. Следует отметить, что хотя произведение написано под влиянием поэзии Низами, в некоторых сюжетах можно увидеть принципиальные различия. Персонаж Ширин в творчестве Дехлеви предстает как возлюбленная, которая любит Фархада всем своим сердцем

и достаточно вдохновляет его, чтобы он ради неё пронзил гору Бехистун. Однако Ширин, написанная Низами, не была влюблена в Фархада, она уважала его только как честного, трудолюбивого художника-мастера. В рассмотренных нами строках можно увидеть некоторые отличия характеров Фархада. А именно, персонаж Фархада, созданный Амиром Хосровом, кажется, имеет пессимистичный и обиженный образ. С другой стороны, Фархад Низами – более оптимистичный, дальновидный и обнадеживающий герой. Дехлеви, несомненно, является ценным представителем низаминской литературной школы.
**Ключевые слова:** Низами Гянджеви, назире, Амир Хосров Дехлеви, месневи, поэт